Ali və orta ixtisas təhsili müəssisələrində 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının təşkil etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Ali və orta ixtisas təhsili müəssisələrində 2020/2021-ci tədris ilinin payız semestrinin imtahan sessiyası 2021-ci il yanvar ayının 11-də başlamaqla 4 həftə müddətində keçirilsin.

2. İmtahan sessiyası distant (məsafədən) formada keçirilsin.

3. Müəyyən fənlər üzrə imtahanlar əyani formada keçirildiyi təqdirdə “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxs tərəfindən hazırlanmış “İmtahanlar zamanı koronavirus infeksiyasının (COVİD-19) profilaktikasına dair metodiki göstərişlər”ə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli qərarı ilə təsdiq edilmiş “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”na riayət olunsun.

4. Ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərləri:

- imtahan sessiyasının qüvvədə olan normativ sənədlər əsasında təşkil olunmasını təmin etsinlər;

- rəhbərlik etdikləri təhsil müəssisələrində imtahan qərargahı yaratsınlar və qərargaha daxil olan hər bir şikayətin operativ şəkildə araşdırılmasını təmin etsinlər;

- imtahanların təşkilində və gedişatında nöqsanlara yol vermiş şəxslər barədə mövcud qanunvericiliyə uyğun tədbirlər görsünlər;

- imtahan sessiyasının təşkili, keçirilməsi və nəticələri barədə sessiya bitdikdən sonra 10 gün müddətində Təhsil Nazirliyinə yekun hesabat təqdim etsinlər.

5. Elm, ali və orta ixtisas təhsili (N.Məmmədli) və Daxili nəzarət (İ.Mahmudov) şöbələri:

- imtahan sessiyasına hazırlıq dövründə və sessiya müddətində təhsil müəssisələrində baş vermiş nöqsanlarla bağlı daxil olan məlumatları operativ araşdıraraq onların yerində həll edilməsini təmin etsinlər. Bu hallara yol vermiş şəxslər müəyyənləşdirilərək onlar barəsində tədbirlərin görülməsi və nəticəsi barədə Nazirliyin rəhbərliyini məlumatlandırsınlar;

- ali və orta ixtisas təhsili müəssisələrində imtahan sessiyasının təşkili, keçirilməsi və nəticələri barədə müvafiq arayışları müzakirəyə təqdim etsinlər.

6. Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsinə (E.Nəsibov) tapşırılsın:

- Nazirliyin «Qaynar xətt» xidmətinin fəaliyyəti və imtahan sessiyasının gedişatı barədə

kütləvi informasiya vasitələrinə müntəzəm olaraq məlumatın verilməsini təmin etsin;

- əmrin Nazirliyin internet saytında yerləşdirilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova tapşırılsın.

***Emin ƏMRULLAYEV,***

***Azərbaycan Respublikasının Təhsil naziri***

***11 dekabr 2020-ci il***

***F-530***